**UOT 781**

***Humay Fərəcova-Cabbarova***
***Azərbaycan Milli Konservatoriyasının doktorantı***
***AZ 1073, Bakı, Ə.Ələkbərov 7***
***E-mail***: humay.ferecova@mail.ru

# CAVANŞİR QULİYEVİN "DASTAN"SİMFONİYASI

**Xülasə:** "Cavanşir Quliyevin "Dastan" Simfoniyası" adlı məqalədə əsər haqqında tarixi məlumat verilmiş, bəzi araşdırmalara və müqayisəli təhlillərə yer ayrılmışdır. Məqalədə "Dastan" simfoniyasının şifahi xalq ədəbiyyatındakı "Dastan" janrı ilə mövzu, məzmun və forma cəhətdən əlaqəli və fərqli cəhətlərindən söz açılaraq maraqlı müqayisələr göstərilmişdir.

**Açar sözlər:** Cavanşir Quliyev, dastan, simfoniya, remarka, mövzu, epizm, dramaturji konflikt

Cavanşir Quliyev istedadlı Azərbaycan bəstəkarı, ictimai xadim,zurna və orkestr üçün "Uvertüra", fleyta, saz və violonçel üçün "Karvan", "Məhəbbət oyunu" operettasının - bir çox mahnıların və s. kimi əsərlərin müəllifi, həmçinin Azərbaycan bəstəkarları arasında "dastan" janrına mövzu aktuallığı baxımından geniş müraciət edən bəsətkarlardandır. O, dastanlara müraciət etməsinin səbəbini onunla edilən canlı ünsiyyət zamanı belə izah etmişdir: "Dastanlarla çalışmanın özəl bir səbəbi yoxdur – hər bir azərbaycanlı kimi, dastanlarımızı və ümumiyyətləxalq ədəbiyyatını çox sevirəm. Bir çox təkliflərin nəticəsi olaraq mən bu sahədə bir çox əsərlər yazmağa qərar verdim."

Cavanşir Quliyev eləcə də, "Dastan" adlı IV Simfoniyanı, "Oğuznamə", "Kızılırmak", "Nuhun gəmisi" və ya "Tufan" adlı baletlərini yazmışdır. Hal– hazırda bəstəkar "Dədə Qorqud"dastanının boylarına aid baletlər (yeni dastanlar) üzərində hazırlıq işiləri aparır - eskizlər hazırlayır, librettolar yazır. Hətta bəstəkar birinci balet kimi "Dirsə Xan" (librettosu Vaqif İbrahimoğlunundur) baleti üzərində artıq işlərə başlayıb. Bəstəkar "Dədə Qorqud" dastanının boylarına əsaslanaraq 12 baletden ibarət nəhəng bir proyekt yaratmaq fikrindədir.

Bu baxımdan bəstəkarın "Dastan" adlı IV simfoniyasını nəzərdən keçirtməklə onun ümumilikdə dastan konsepsiyasına dair olan baxışlarını, fikirlərini və yaradıcılıq baxımından yeniliklərini öyrənə bilərik. Bəstəkardan "Dastan" simfoniyası haqqında fikirlərini öyrənərkən o, bu simfoniya haqqında fikrini belə izah edir: "Klassik dastan ilə simfoniyanın quruluş oxşarlığı var: orada da, burada da bir mövzu vaxtaşırı dönərək bizə nələrdənsə bəhs edir, orada da, burada da davamlı vaxt ərzində müəyyən olaylar baş verir, ən əsası da haqqında bəhs olunan mövzu epik xarakter daşıyır - yəni şəxsiyyətdən aralanaraq, cəmiyyətə
– kütləyə, xalqa aid mənəvi kateqoriyaya çevrilir".

"Dastan" simfoniyası 2006-cı ildə yazılıb tamamlansa da, ilk dəfə 2008-ci ilin mart ayında Azərbaycan Dövlət Filarmoniyasında "Qara Qarayev-25" adlı festivalında V.Runçakın idarəsi ilə Azərbaycan Dövlət Kamera orkestrı tərəfindən ifa edilərək uğurlu ifa tarixi yaşamış olur.

Əsər Üzeyir Hacıbəyliyə həsr olunmuşdur. Burada bir neçə təzadlı mövzuların qarşılaşması öz əksini tapır. Bəstəkar simfoniya daxilində söylədiyi kimi sanki dastan yazmışdır. O, öz təxəyyülündə Üzeyir bəyin obrazını yaratamış və ona qarşı olan, onun fikirlərinə qarşı duran ziddiyyətli insanları qaranlıq dünyanın simvolu kimi xarakterizə edərək əsərdə xüsusi bir dramatiz yaratmışdır.

Hətta əsərdə remarkalar (qeydlər, şərti işarələr) verilmiş, solo skripka Üzeyir Hacıbəylinin obrazı kimi təqdim edilmiş və müəyyən qədər əsər teatrlaşdırılmışıdır. Simfoniya dramatik simfoniyadır və ziddiyyətlidir. Burada dastana aid epiklik, şəhrçilik elementləri öz əksini tapır. Yəni bəstəkarın dili ilə Üzeyir bəy haqqında sanki dastan (daha dəqiq desək əhvalatlar) söylənilir, bəstəkarın təxüyyülündə formalaşan hadisələr canlandırılır.

Bu barədə bəstəkar özü də belə bir izah verir: "Qısa desək - əsərdə "mənəviyyatsızlıq və nadanlığın qələbəsi" öz əksini tapır. Əsərdə "iki dünya"– Üzeyir bəyin təmsil etdiyi (o həm də əsərin baş xarakteridir, ilk mövzu onun obrazıdır) yüksək əxlaq və mənəviyyat dünyası ilə mənəviyyatsızlıq və nadanlıq dünyası çarpışır. Zənnimcə bu, bizim indiki cəmiyyətimizin görüntüsüdür. Müasir toplumun əksəriyyəti Üzeyir Hacıbəylinin arzularına əks olaraq, nadanlıq və mənəviyyatsızlığa doğru yuvarlanır. Simfoniyada nadanlıq qələbə çalır. Yüksək mənəviyyat daşıyıcısı olan violino solisti (ona Üzeyir bəy də demək olar) ifazamanı əvvəlcə səhnədən, sonra isə konsert salonundan oturan orkestr tərəfindən (bizim toplum tərəfindən) qovulur, səsi susdurulur və beləliklə, nadanlıq dünyası qalib gəlir".

Simfoniya 1 hissə daxilində bir neçə mövzuların çarpazlaşması əsasında qurulmuş təzadlı mürəkkəb forma bitkinliyini yaradır. Öncə qeyd edək ki, simfoniya sırf simli orekstr üçün - kvaret üçün ( I-II skripka, alt, vilonçel,

kontrabas) yazılmışdır. Burada bəstəkar müxtəlif mövzular əsasında 2 dünyanın - nadanlıq və işıqlı dünyanın obrazı və simvolu sayılan Üzeyir Hacıbəylinin obrazını yaratmış və simfoniyada dramatik gücü, gərginliyi artırmışdır. I mövzuda
**(A)** məhz Ü.Hacıbəylinin "Koroğlu" operasındakı uvertüranın ilk sədalarının gərgin şəkildə ifadəsini hiss etmək olar**.**




I mövzunun ardı olaraq burada xaousu xatırladan sədalar, bədbinlik öz əksini tapmaqla işıqlı dünya ilə nadanlığın toqquşmasını göstərmək üçün zəmin yaradır. Buradakı dramatik konfilikti daha çox skripkanın ifaçılıq imkanları olan sul ponticello, sul tasto, con sordina, senza sordina, vibrato, glissandro öz əksini tapır. Tədricən çahargah məqamının intonasiyaları burada duyulur.

II mövzu (B) kimi sayılan "nadanlıq", "qara qüvvələr" - "Üzeyir Hacıbəylini anlamayanlar"ın obrazını skripkaların diviziyasında (bölünməsi) vəvibrasiyasında göstərilir**.**




Daha sonra yenidən III oktavanın ifasında I mövzu dəyişilmiş şəkildə (A1) səslənir və gərgin bir mövzuların çarpazlaşmasından sonra musiqidə dönüş yaranır və sanki xalq şənliyini xatırladan işıqlı bir mövzu səslənir. Yenidən gərginlik artır II mövzudan da daha sərt səslənən bir mövzu (C mövzusu) gəlir.



C.Quliyev DİVAN III Dördüncü Simfoniya "DASTAN" - J.Guliyev DİVAN III Fourth Symphony "DASTAN"

Ardınca I mövzunun yeni şəkildə təfsiri (A2) gəlir. Təbii ki, dramatikliyi artırmaq üçün D mövzusu da gəlir ki, A2 mövzusuna əks qütb kimi göstərilir




C.Quliyev DİVAN III Dördüncü Simfoniya "DASTAN" - J.Guliyev DIVAN III Fourth Symphony "DASTAN"

Yəni simfoniyadakı dramatik konflikti nəzərə aldıqda təsəvvürümüzdə belə bir şey düşünə bilərik ki, burada Üzeyir bəy hər dəfə fərqli qütblərlə mübarizə aparır və qalib gəlməyə cəhd edir. Məhz bu hissədə də gərginlikdən sonra yenidən işıqlı mövzu olan Üzeyir Hacıbəylinin lirik obrazı öz əksini tapır ki, ardınca I mövzunun (A3) - (accelerando) yeni təfsiri əks olunur. Əsər bir növ rondo formasına xas olan refren və epizodların əvəzlənməsi prinsipini xatırladır. Cünki burada da A mövzusu və yeni mövzuların qarşı durması baş tutur və A mövzu hər dəfə dairəvi şəkildə yenidən əvvəlki mövqeyinə qayıdır.

Burada eləcə də, bəstəkar tərəfindən yazılmış remarkalarda - “Solist səhnənin hər hansı bir kənarına gedir”, “səhnənin kənarında ifa edir” cümlələri qeyd edilmişdir. Sanki əsl dramaturji düyün burada öz təzahürünü tapır. Tədricən solist gərgin bir ifada salonun mərkəzinə doğru gəlir və burada ifa edir. Bəstəkar

solistin simasında Üzeyir Hacıbəylinin obrazını yaratmışdır. Tamaşa salonunun mərkəzində duran solist – (Üzeyir bəy) lirik mövzu ilə sanki öz daxili aləmini açıb göstərir**.** Remarkada qeyd edildiyi kimi daha sonra solist foyeyə çıxaraq salonun qapısını açıq qoyur və kəskin şəkildə gərgin ifa nümayiş etdirir. Sanki o öz mübarizəsini, etirazını "nadan" qüvvələrə qarşı gərgin mövzusunu (E mövzu) bildirərək çıxıb gedir.




Bəstəkarın qeydinə görə, Üzeyir bəy nadanlığa qarşı öz nifrətini bildirərək hər kəsdən uzaqlaşır. Məlumdur ki, solistin etiraz olaraq səhnədən uzaqlaşması ilk dəfə İozef Haydının 1772-ci ildə yazdığı "Vida" simfoniyasında baş verir. Həmin simfoniyada da sonda 2 skripkaçı qalır və onlarda səhnəni tərk edərək dirijoru tək qoyurlar. Bundan sonra bir çox bəstəkarlar bu yaradıcılıq üsulundan yararlanmışdır. Sonradan Azərbaycan bəstəkarlarından Cəlal Abbasov, Fərəc Qarayev eləcə də, Cavanşir Quliyev də bu tip fərqlilikləri əsərlərində yaratmışdılar. Nəticədə dramaturji inkişaf, konfilikt və teatrallıq əsərdə daha mahirşəkildə özünü biruzə verir.

Əsər bir növ proqramlı simfoniyadır. Burada bəstəkar "Dastan" dedikdə epikliyi və şəhrçiliyi nəzərdə tutur. Yəniki bəstəkar Ü.Hacıbəyli haqqında öz təsəvvüründə dastan - əhvalatlar qoşur və bu barədə musiqinin dili ilə epik şəkildə şəhr edir. Əsər mövzu baxımından Azərbaycan dastanları ilə əlaqəli deyil, lakin məzmun cəhətdən, şəhrçilik, epizim nöqteyi nəzərdən dastan janrı ilə bağlıdır. Əsərdə atonal musiqidi və hətta sonluqda simli alətlərin diviziyasında hər alət 1 notla yekun vurduğunu qeyd etməliyik. Bu element bir qədər bizə dodekafoniyani xatırladır.

Əsərin məqam əsasını mi mayəli şur məqamı təşkil edir. Lakin əsərdəki kiçik giriş hissə mayənin üst kvintasına si səsinə dəfələrlə istinad edir.

Qeyd edək ki, Cavanşir Quliyevin Üzeyir Hacıbəyliyə həsr etdiyi "Dastan" simfoniyası Sərdar Fərəcovun Şah İsmayıl Xətainin 500 illik yubileyinə həsr etdiyi "Xətai" simfoniya dastanı ilə də müəyyən qədər yaxındır.

Hər iki bəstəkar simfonik janra təhkiyəçilik elementləri gətirərək simfoniyada yeni dramaturji təfəkkür formalaşdırırlar. Hər iki bəstəkar proqramlı simfoniyalarında həm bəstəkar, həm də bir aşıq qismində sanki dastan danışır və musiqinin dili ilə baş verən əhvalatları şəhr edirlər.

1. Hər iki əsər simfoniyadır
2. Proqramlıdır
3. Hər iki əsərdə simvolik obrazlara (S.Fərəcov "Şah İsmayıl Xətai"nin, C.Quliyev "Üzeyir Hacıbəyli"nin obrazını yaratmışdır) yer verilib
4. Forma cəhətdən əsərlərdə ümumilikdə bir hissəlilik prinsipi ( S. Fərəcovun simfoniyası 4 hissəli olsa da, əsər bir nəfəsə ifa olunur) irəli sürülüb.
5. Azərbaycan məqamlarından geniş istifadə edilib
6. Dramaturji konfilikt yaradılıb
7. Müasir yazı texnikası, eləcə də atonal musiqiyə yer verilib
8. Hər iki əsər təzadlı mürəkkəb formadadır
9. Hər iki simfoniyada simvolik obrazlara qarşı dramaturji konflikt, "əks qüvvələr" , "mənfi qüvvələr" tərəfindən mübarizə yaradılsa da, qəhrəmanlar mənən yüksələrək qalib gəlirlər.

"Dastan" və "Xətai" simfoniya-dastan əsərlərinin eləcə də, fərqli cəhətləri də var: Məsələn:

1. "Xətai" simfoniya-dastanı 1 hissə daxilində 4 hissədən ibarət əsərdir, "Dastan" simfoniyası 1 hissə daxilində bir neçə epizodlardan ibarət ümumilikdə 1 hissəli əsərdir.
2. "Xətai" simfoniya-dastanı bir başa dastanla mövzu və məzmuncəhətdən bağlıdır. "Dastan" simfoniyası isə dastan janrı ilə məzmun cəhətdən bağlıdır. Lakin simfoniyadakı bu ad daha çox rəmzi məna daşıyır.
3. "Xətai" simfoniya-dastanı Böyük Simfonik Orkestr üçün yazılmış, "Dastan" simfoniyası isə simli alətlər üçün yazılmışdır.
4. "Xətai" simfoniya-dastanında həm aşıq musiqisi, həm sufi-dərviş musiqisi duyulur və Azərbaycan məqamlarından, muğamlarından

geniş şəkildə istifadə olunur. “Dastan” simfoniyasında isə yalnız Azərbaycan məqamlarının və muğamlarının (eləcə də, xalq rəqslərinin) kiçik intonasiyaları duyulur.

5. “Xətai” simfoniya-dastanı 1988-ci ildə, “Dastan” simfoniyasında isə 2006-cı ildə yazılmış və hər 2 simfoniya müxtəlif zamanlarda öz ifa tarixini yaşamışdılar.
6. “Xətai” simfoniya-dastanı Sərdar Fərəcovun yaradıcılığının erkən mərhələsində, “Dastan” simfoniyası Cavanşir Quliyevin yetkin yaradıcılıq mərhələsində yazılmışdır
7. “Xətai” simfoniya-dastanı simfonik musiqiyə gətirilən yeni bir janrdir, “Dastan” simfoniyası isə simfonik musiqi janrına gətirilən rəmzi addır.

## Ədəbiyyat:


1. Üzeyir Hacıbəyli. “Koroğlu” operası. Bakı: Şərq-Qərb, 2010. 280 səh.Partitura
2. Javanshir Guliyev. Fourth Symphony “Dastan” (to Uzeyir Hadjibekov). Baku: 2006. 88 səh. Partitura
3. Новак Л. Йозеф Гайдн. Жизнь, творчество, историческое значение // Joseph Haydn. Leben, Bedeutung und Werk / Перевод с немецкого Д. Каравкина и Вс. Розанова. — М.: «Музыка», 1973, 448 с.
4. Альшванг А. А. Иосиф Гайдн. — М.—Л., 1947.
5. Брянцева В.Н. Музыкальная литература зарубежных стран М.: Музыка, 2004. - 183 с.



**Умай Фараджева-Джаббарова**


## Симфония «Дастана» Джаваншира Гулиева

## Резюме


Статья посвящена изучению симфонии «Дастан» Джаваншира Гулиева. Автор статьи проводит сравнительный анализ симфонии «Дастан» с жанром «дастан» из устного народного творчества. А именно, выявляются сходные и отличительные черты, с точки зрения темы, содержания и формы.



**Ключевые слова:** Джаваншир Гулиев, дастан, симфония, ремарка, тема, эпизм, драматический конфликт.



**Humay Farajova –Jabbarova**


## A Brief Overview of the Symphony "Dastan" by Javanshir Guliyev

## Summary


In the article the author gave historical information about the work and provided some studies and comparative analyzes. The article shows interesting

comparisons of the theme of the symphony "Dastan" in the oral folk literature"Dastan", related to the theme, content and form.

**Keywords:** Javanshir Guliyev, dastan, symphony, remarks, theme,epizm, dramatic conflict

**Məqalənin redaksiyaya daxil olma tarixi: 13.03. 2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16.03.2018Məqalənin çapa qəbul olunma tarixi: 10.04.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfədoktoru Cəvahir Mustafayeva**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**